# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

VULKAN



5

№ 031 (7441)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

21 aprel 2026-cı il.
Qiyməti 1 manat

## Antalya Diplomatiya Forumu: sabitlik və təhlükəsizlik üçün yeni çağırışlar



2

# Dünya neft-qaz bazarında BÖHRAN: kim itirir, kim qazanır?

Qlobal bazar 2 ayda yarım milyard barel neft itirib. Yaxın aylarda böhranın davam edəcəyi proqnozlaşdırılır




4

### Uşaqlara uşaqlığımızdan danışaq...



3

### Niderland parlamenti absurd qərarı ilə özünü rüsvay etdi



4

### Həcc ziyarətinə sənəd qəbulu niyə dayandırıldı?



8

### "Boşanma zamanı, valideynlərin uşaqla ünsiyyətinə maneə hüquq pozuntusu sayılır"



8

### Döyən, öldürən, yandıran məktəblilər



3

# Antalya Diplomatiya Forumu: sabitlik və təhlükəsizlik üçün yeni çağırışlar

***Azərbaycanın xarici siyasəti mahiyyət cə çoxistiqamətli və çoxaspektlidir. Rəsmi Bakı bu özəlliyi davamlı olaraq saxlayır, inkişaf etdirir və geosiyasi dinamikadan asılı olaraq ona yeni məzmun çalarları verir. Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 5-ci Antalya Diplomatiya Forumunda iştirak etmək üçün aprelin 16-da Türkiyəyə işgüzar səfər etmişdir. Aprelin 17-də Türkiyənin Antalya şəhərində 5-ci Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib. Antalya Diplomatiya Forumu artıq qlobal bir brendə çevrilib. Forumu oxşar tədbirlərdən fərqli edən isə onun birləşdirmə, görüşdürmə gücüdür.***



Geosiyasi gərginliklər, dəyişən güc balansları, ticarət maneələri və çoxtərəfliliyə artan təzyiq fonunda cari qlobal mənzərənin proqnozlaşdırılması getdikcə daha çətin xarakter alır. Beşinci Forumun mövzusu ”Gələcəyi planlaşdırarkən qeyri-müəyyənliklərin öhdəsindən gəlmək” riskləri və imkanları müəyyənləşdirməyi, strategiyalar hazırlamağı və əldə olunan razılaşmaları əməli addımlara çevirməyi tələb edir. Builki forumda 150-dən çox ölkədən 22 dövlət və hökumət başçısı, 14 dövlət və hökumət başçısının müavini, 39-u xarici işlər naziri olmaqla 50-dən artıq nazir, həmçinin 75-i beynəlxalq təşkilatların nümayəndəsi olmaqla ümumilikdə 500-dən çox yüksəksəviyyəli şəxs iştirak edib. Forum çərçivəsində liderlərin panelləri də daxil olmaqla, 40-dan çox tədbir və sessiya keçirilib.






Tədbirdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında Türkiyə ilə Ermənistan arasında davam edən normallaşma prosesinin Azərbaycanla əlaqəli şəkildə aparıldığını vurğuladı. Türk Dövlətləri Təşkilatından danışan Türkiyə Prezidenti qurumun fəaliyyətinin daha da inkişaf etdiyini bildirərək deyib: ”Bu ilin son aylarında ölkəmizdə təşkil edəcəyimiz XIII Türk Dünyası Zirvəsində yeni dövrdə sədrliyi Azərbaycandan təhvil alacağıq. İnşallah, bu müddətdə təşkilatımızın beynəlxalq fəaliyyətini və nüfuzunu daha da artıracağıq. Azərbaycanla əlaqələndirilmiş şəkildə qonşumuz Ermənistanla normallaşma prosesində addım-addım irəliləyirik. Bu minvalla Asiya ilə Avropa arasındakı ticarətdə ən etibarlı marşrut olan və Xəzərdən keçən Şərq-Qərb - Orta Dəhliz təşəbbüsünə də güclü dəstəyimiz davam edir”.



Türkiyədə keçirilən V Antalya Diplomatiya Forumu çərçivəsində səsləndirilən fikirlər regionda sabitlik və təhlükəsizliyin təmin olunması üçün yeni yanaşmaların aktuallığını bir daha göstərir. Türkiyənin münaqişələrə münasibətdə diplomatiyanı ön plana çəkməsi, eyni zamanda NATO üzvü, Avropa İttifaqına namizəd ölkə kimi Qərb strukturları ilə əməkdaşlığı davam etdirməsi və paralel olaraq Türk Dövlətləri Təşkilatı, İslam dünyası və digər regional platformalarda fəal iştirakı çoxşaxəli və balanslı xarici siyasətin nümunəsi kimi diqqət çəkir.

## REGİON ÜÇÜN YENİ TƏHLÜKƏSİZLİK MODELİ

Göründüyü kimi, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması məsələsi paralel olaraq Türkiyə siyasətində də prioritetdir. Bu, həm iqtisadi, həm də siyasi prizmadan Ankaranın maraqlarını əhatə edir. Azərbaycan və Türkiyəni bir-birinə yaxınlaşdıran amillər yalnız qardaşlıq dəyərləri, ortaq tarix və mədəniyyət deyil, eyni zamanda, müasir çağırışlar fonunda uzlaşan milli maraqlardır. Antalya Diplomatiya Forumu çərçivəsində səsləndirilən mesajlar göstərir ki, mövcud geosiyasi reallıqlarda təkcə hərbi güc deyil, diplomatik çeviklik, çoxtərəfli əməkdaşlıq və strateji balans siyasəti daha davamlı nəticələr yaradır. Bu baxımdan, Türkiyənin çoxşaxəli xarici siyasəti ilə Azərbaycanın balanslı və əməkdaşlığa əsaslanan yanaşmasının sintezi region üçün yeni təhlükəsizlik modelinin əsasını qoya bilər.

Ermənistan-Azərbaycan münaqişəsinin həlli regional baxımdan xüsusi əhəmiyyət daşıyır. Ölkəmiz bu prosesdə liderlik nümayiş etdirib və münaqişə artıq keçmişdə qalıb. Azərbaycan siyasi, hərbi və hərbi-siyasi vasitələrlə öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib.

Türkiyə-Azərbaycan ikitərəfli əməkdaşlığı regional sülh və təhlükəsizliyin mühüm sütunlarından biridir. Türkiyə-Azərbaycan əməkdaşlığı liderlərimiz tərəfindən imzalanan ”Şuşa Bəyannaməsi” ilə müttəfiqlik səviyyəsinə yüksəldi.

## AZƏRBAYCANIN NÜFUZ VƏ MÖVQEYİ

Səfər çərçivəsində aprelin 17-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bir sira dövlət başçıları ilə görüşüb. Dövlətimizin başçısı Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Tufan Erhürmanla, Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşüb. Keçirilən görüşlərdə bir daha Azərbaycan dövlətinin dünyadakı etibarı, Azərbaycan Prezidentinin qlobal dünya siyasətindəki nüfuzu, müdrik liderliyi aydın şəkildə özünü təsdiq edib.

Nəticə olaraq qeyd edək ki, Antalya Diplomatik Forumu müasir beynəlxalq münasibətlər sistemində qlobal dialoqun bərpası, regional əməkdaşlığın GENİŞLƏNMƏSİ baxımından strateji əhəmiyyət daşıyır. Dünya yeni güc mərkəzlərinin formalaşdığı, qeyri-müəyyənliklərin artdığı və diplomatiyanın rolunun daha da yüksəldiyi bir mərhələyə daxil olub. Azərbaycan bu proseslərdə fəal iştirak edərək öz milli maraqlarını uğurla təmin edən aktorlardan biri kimi çıxış edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Uşaqlara uşaqlığımızdan danışaq...



unudulub, ”Tıx-tıx” yada düşmür, ”Fincan-fincan” da oynanmır. İndi artıq o körpəcə əlləri də heç siçanlar dişləmir. Siçanlar yerini ”maus”a verib. ”Maus”larsa əl dişləmir, ruhu dişləyir. Kompüterlər, smartfonlar, planşetlər, bir də ki playstationlar əvəzləyib o gözəl oyunları. Xoş xatirə qaynağı o ziyansız, zərərsiz oyunları

Tez-tez keçirəm məhəllələrdən. Yaman sükut çöküb məhəllələrə. Sanki uşaqlar yoxdur, hara isə gediblər. Lal sükut  Bu sükutu yaradan nə? Təbii ki, kompüter, telefonlar, planşetlər  Uşaqların əllərinə öz əlimizlə verdiyimiz xəstəliklər. Səsi çıxmasın, başı qarışsın, çöl-bayır istəməsin deyə, verdiyimiz telefonlar. Saatlarla kompüter qarşısına çökdürdüyümüz uşaqlar. Yorğun gözlər, əldən düşmüş sümüklər  Onurğası durğunluqdan ”dil açan”, özü isə əsla usanmayan, doymayan uşaqlar

Məhəllələrdə görürəm hərdən azmaz uşaq. Əllərində planşetlər, smartfonlar  Bir kənarda anaları söhbət edir qonşularla şirin-şirin. Uşaqlarsa saatlarla oyunlarda. Körpələri vəhşiliyə sürükləyən oyunlarda  Telefondan gələn səslərə bax, gör necə də ətraflarda gurlayır: atışmalar, çığırışmalar, vahimə-





***Bu gündən dünənə  Baxır, hey baxıram. O uşaqlıq, bu uşaqlıq  O oyunlar, bu oyunlar  Uşaqların bir-birinə o sevgisi, bu sevgisi Həyət dolu uşaqlar, həyat dolu uşaqlar. Məhəllələrin səsi-küyü, sevinci, şaqraq gülüşlü uşaqları. Nə oyunlar oynayardıq. ”Beşdaş”dan başlardıq. Bunun üçün saatlarla daş axtarıb yığar-yığar, daha sonra içindən hamarların, yumruların, rənglilərin seçərdik ki, gözoxşayan, əlimizə yatan olsun  Günlərlə bu daşların ən qəşəngin axtarardıq. Hələ gözdən oğurlanıb daş yığmağa yollanardıq... Bu daşlarla günləri biz edərdik baş. Nə bir qüssə, nə bir kədər, deyə-gülə o qayğısız uşaqlığı bu daşlarla atar-tutar, barmaqların on çeşidli formasından keçirərək qalib olar, xoş saatlar yaşayardıq***

Bu tək bir daş oyunumu? Xeyr. Bu daş oyunu zəkamızı artırardı, göz yaddaşı bəxş edərdi uşaqlara. Əllərimizin bir andaca hərəkəti saatlarla bir idmana bərabərdi. Daşlaşardı o mənalı uşaqlığımız bu daşlarda. Gün, ay nədir? - ötən, gedən. Qalan nədir? - tək xatirə...

Tək ”Beşdaş”mı? Xeyr. ”Evcik-evcik” oyunumuz da var idi. Daşıyardıq evəşikdən palaz-paltar, qab-qacaq, gəlinciklər küçəmizə. Bir guşəyə palaz açıb ”evimizi” qurardıq biz. Biri ata, biri ana, biri də bala olardı. Çox sevimli ailəmizdə olanları evciklərə daşıyardıq. O illərin ”Evcik-evcik” oyunundan yaddaşlara nələr hopub? Unudulmayan ən gözəli quru lavaşı ovub, üstünə də xırdalanmış pendir səpib ”ailə” üçün hazırlanan yemək olub. Necə şirin yeyərdilər uşaqlar bu ”yeməyi”. Uzun illər bu ”yeməyi” xəyallardan ala bilmir  Bir sözümüz birimizə bəd gələndə küsüşərdik, küsülülük yuxumuzu ərşə çəkər, küsülülük bitənədək əzab çəkər, barışmağa can atardıq.

Binaların blokları ”konsert zallarımız” idi, pilləkənlər oturacaq. Qarşıdakı kiçicik bir ”meydança” da çalanların, oxuyanların yeri idi. Musiqi məktəbində oxuyan uşaqların biri qarmon, nağarasın, biri tarın, kamançasın gətirərdi. Səsi olan oxuyardı. Yaşıdımız tamaşaçılar pilləkəndə çalanları alqışlardı. Oxuduğumuz yerdəcə mahnıların sözlərini unudardıq, bir andaca deyib-gülüb bir-birimizə qarışardıq.

Açılardı birinci mərtəbədən bir qapı: ”Ay uşaqlar, sizin əlinizdən biz hara gedək?” Açılardı ikinci mərtəbədən bir qapı: ”Ay uşaqlar, bu nə səsdir?”  Qovulmaq qorxusu çökərdi üstümüzə. Böyüklərə nə var ki, alardılar pillələri əlimizdən, sevdiyimiz o ”zalı”. Başqa yerdə konsert olar? Tamaşaçı bəs harada əyləşərdi, çalanları, oxuyanları o haradan dinlərdi? Bax? bunları düşünərək susardıq biz  Xatirələrə çevrilən mənzərələr bu günlərdə anılanda düşünürəm: - Böyüklərin hirsinə baxmayın, qoymasaydılar, qoymazdılar bizi o pillələrə. O səs-küyə tab gətirmək asanmıdır? Gözlərinin önündəcə olmaq üçün onlar bizə susurdular. Tək bununçün? Xeyr. Lap sonralar bildim ki, mən onlar bizi qapılardan dinləyirmiş  Sən demə, tamaşaçı tək məhəllə uşaqları deyilmiş. Qapının o tərəfində bizlə yaman qürur duyan neçəneçə analar da, xalalar da var imiş

”Yeddi daş”, ”Ortada qaldı”, ”Gizlənqaç”, ”Bənövşə, bəndə düşə”, ”Ocaq yandı, su qaynadı”, ”Əlimi siçan dişlədi”, ” Xan-vəzir”, ”Tıx-tıx”, ”Dama-dama”, ”Fincan-fincan”, ”Top divarda”dan danışmıram. İndi məhəllə uşaqları hər üzü şumal olan yeddi daş heç axtarmırlar. Onları üst-üstə yığıb topun güclü zərbəsilə heç ətrafa dağıtmırlar. İndi heç ”Alma desəm aç, armud desəm, açma!”, - deyən də yoxdur. Dəqiqələrlə ortada qalıb topun zərbələrindən qurtulmaq üçün o yana-bu yana qaçan da yoxdur. Bənövşə də küskün düşüb, üz çevirib, heç yaxına gəlmir ki, bəndə düşə, ya düşməyə... Ocaq yanmır, su qaynamır.

Məhəllələrdə indi bir zamanlar təbaşirlə çəkdiyimiz dama yoxdur. Yağışın, bir də qarın pozmasından məyuslandığımız damaları gör nə vaxtdır, ”sel aparıb”. ”Top divarda”n enib, ”Xan-vəzir” talər  Bir kənardasa yelləncəklər, on cür oyun qurğuları. Baxdıqca uşaq olmaq istəyirəm... Bir zamanlar heç tapmazdıq bunları. Ağaclardan kəndir asıb yelləncəklər qurardıq. Yelləndikcə nazikləşən kəndirlərsə qəflətən qırılar, üzüüstə yerə düşüb, yamanca yaralanardıq... Hayqırmaq istəyirəm: - Ay uşaqlar, yerə qoyun telefonları, gəlin yellənin, atılın-düşün, gününüzü heç olmasa bu oyunlarla keçirin...

Ana susur, ata susur  Nə üçün görən? Özlərinin uşaqlıqda oynadığı oyunları görən niyə öyrətmirlər uşaqlara? Gözlərinin önündəcə övladları yuvarlanır ətalətə, xəstəliyə, süstlüyə  Bilə-bilə, görə-görə görən niyə susur ana? Olanlara, keçənlərə nə üçün göz yumur ata?

Heç gec deyil, ay atalar, ay analar! Uşaqları aparın öz keçmişinizə. Oyunlara qonaq edin, onlara da daddırın o şirinliyi, savab edin. O illərdən uşaqlara bir pay verin  Edin, hökmən edin. Uşaqlara gələcəkdə bir zamanlardan danışmağa söz verin

Bir zamanlar ” Beşdaş”, ”Yeddi daş” oynardıq. Başlayardı bu daşlardan oyunlarımız. Heç bitməzdi, tükənməzdi  Daşlaşıbdır uşaqlığımız o daşlarda. O kiçicik daşlardan başlayan oyunlarda  Harda görsən o daşlardan, xatirələr düşür yada. Şirin-şəkər xatirələr. Uşaqlıqdan qalan gözəl xatirələr...

İndi deyin, necə uçmasın xəyal o illərə? Noğul kimi oyunlardan bu gün əsər qalmayan o illərə

***Mətanət Məmmədova***



Lalə Mehralı

# Döyən, öldürən, yandıran məktəblilər

Mütəmadi olaraq həm ölkə, həm də dünya mətbuatında xüsusilə məktəblilərin bir-birinə zərər verməsi ilə bağlı məlumatlar yayımlanır. Ötən həftə Türkiyədə məktəbdə bir şagirdin törətdiyi qətliamda 10 nəfər həlak oldu, hadisəni törədən şagird də zərərsizləşdirilərkən öldürüldü. Bu gün yerli mediada Bakıdakı orta məktəblərin birində 9-cu sinif şagirdinin öz sinif yoldaşına zərər verməsi barədə məlumatlar yayıldı.

Məlumata görə, 2010-cu il təvəllüdlü yeniyetmə 2011-ci il təvəllüdlü şəxsin üzərinə spirt tökərək alışqanla yandırıb. 2011-ci il təvəllüdlü oğlan yeniyetmə yanıq xəsarətləri ilə Nərimanov Tibb Mərkəzinin nəzdində olan Yanıq Mərkəzinə hospitalizasiya olunub. Ona başın, üzün, boynun, gövdənin ön-yan səthlərinin hər iki yuxarı ətraflarının II-III dərəcəli termiki alov yanığı diaqnozu təyin olunub. Hazırda pasyentin müalicəsi Reanimasiya şöbəsində davam etdirilir. Vəziyyəti ağır qiymətləndirilir.

Bu nə ilk hadisədir, nə də son olacaq. Biz bundan sonra da tez-tez mətbuatda öz yaşıdını öldürən, döyən, zərər verən şagirdlər haqqında məlumatlar görəcəyik, üstəlik bu vəziyyət artan istiqamətə doğru gedəcək. Məktəblilər arasında aqressiyanın və bir-birinə zərər verməyin səbəbləri haqqında dəfələrlə yazmışıq, ekspertlər rəy bildiriblər, lazımı maarifləndirmə işləri aparılır, lakin bir nəticə olmur.

Ailə mühiti və tərbiyə ən birinci səbəbdir. Uşaqlar yaxşı təqlidçidir, onlar adətən gördüklərini təkrarlayırlar. Əgər ailədə fiziki və ya psixoloji zorakılıq varsa, uşaq bunun özünün qarşılaşdığı problemlərin həlli üçün də normal bir yol olduğunu düşünür. Bəzən həddindən artıq sərt, bəzən də əksinə, tamamilə laqeyd valideyn münasibəti uşaqda daxili, gizli qəzəb yaradır. O qəzəb bir gün haradasa, kimi isə tapır, zərər verir.

Yeniyetməlik insan həyatının elə bir dövrüdür ki, bu dövründə uşaqlar həmyaşıdları arasında üstün mövqe qazanmağa, diqtə edən olmağa çalışırlar. Bəzi yeniyetmələr üçün güc nümayiş etdirmək, öz həmyaşıdını və ya başqasını alçaltmaq özünü təsdiq etmək deməkdir. O çevrəsində liderlik etmək üçün bütün mümkün üsullara baş vurur. Özünə inamı olmayan, ailədə valideyndən qayğı görməyən, diqqətdən kənar qalan uşaqlar başqasına zərər verməklə özlərini daha üstün hiss etməyə çalışırlar.

Bəzən yeniyetmələrdə emosional tənzimləmə bacarığı da olmur, kriik vəziyyətlərdə özünü ələ ala bilmir, hiss və duyğularını gizlətməkdə çətinlik çəkir. Bir çox yeniyetmə stress, məyusluq və ya qısqanclıq kimi mənfi hisslərlə necə mübarizə edəcəyini də bilmir. Bu duyğular yığılmış emosiyalar formasında bir gün vulkan kimi partlayış verir. Bu partlayış ya öldürmə, ya döymə, ya da bullinq kimi halların yaranmasına xidmət edir.

Uşaqların çevrəsinə qarşı aqressiyasının bir səbəbi də zorakılıq ehtiva edən video oyunlar, filmlər və sosial şəbəkələrin yaradığı asılılıqdır. Bu kimi məşğuliyyətlər uşaqlarda empatiya və mərhəmət hissini zəiflədir. Onlar oyunda zərər verdikləri nəsnələrin real həyatda vurduqları zərərlə eyni olduğuna inanırlar. Daha aydın dillə desək, uşaqlar real həyatla virtual dünyanı bir-birindən ayırd edə bilmirlər.

Başqalarına aqressiv davranan uşaqların özünün də vaxtilə zorakılığa və ya bullinqə məruz qaldığı gerçəkliyi də var. Nə vaxtsa özünə qarşı törədilən hərəkətləri zamanı və fürsəti yarandıqda başqalarına qarşı edir və bu onun bir növ intiqam hissi olur. O bunun fərqində deyil, bir çox hallarda qeyri-ixtiyari edir.

Ümumiyyətlə, uşaqların bir çox halda başqasına zərər verməsi halları onların bir çoxunda empatiya və mərhəmət hissinin olmamasından qaynaqlanır. Başqasının ağrısını hiss edə bilməyən uşaqların sayı günügündən artır. Bu cür uşaqların məktəb psixoloqları tərəfindən aşkarlanaraq ehtiyat tədbirləri görülməsi məsələsi isə bizə uzaq olan vəziyyətdir. Çünki məktəblərdəki psixoloqlar məktəbdə təhsil alan risk qruplu uşaqlarla heç vaxt işləmirlər, nəzarətdə saxlamırlar. İnsafən, ailələrin etinasız yanaşdığı uşaqların məsuliyyətini bütünlüklə psixoloqların üzərinə atmaq da bir qədər ədalətsizlik olardı.

# Dünya neft-qaz bazarında BÖHRAN: kim itirir, kim qazanır?

*Qlobal bazar 2 ayda yarım milyard barel neft itirib. Yaxın aylarda böhranın davam edəcəyi proqnozlaşdırılır*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb*

***Röyters agentliyinin məlumatına görə, ABŞ və İsrailin İrana hücumundan sonra bazar təxminən 50 milyard dollar dəyərində xam neft itirib. Agentlik bunun nəticələrinin bir çox aylar və hətta illər ərzində hiss olunacağını proqnozlaşdırır. Müharibə başlayandan bəri qlobal bazardan 500 milyon bareldən çox neft və kondensat yoxa çıxıb ki, bu da müasir tarixdə enerji təchizatında ən böyük pozuntudur.***




Bu həcmdə neftin itirilməsi qlobal hava səyahətinə tələbatın 10 həftəlik azalmasına, 11 gün ərzində bütün yol hərəkətinin tamamilə dayandırılmasına və qlobal iqtisadiyyat üçün 5 günlük neft çatışmazlığına bərabərdir. Bu həcm, həmçinin ABŞ-da təxminən 1 aylıq neft istehlakını və ya bütün Avropa üçün 1 aydan çox, ABŞ ordusu tərəfindən təxminən 6 illik yanacaq sərfini və dünya üzrə təxminən 4 aylıq beynəlxalq daşımaları təmsil edir.

Neftin qiymətləri orta hesabla bir barel üçün 100 dollar civarında olduğu üçün bu itirilmiş həcmlər təxminən 50 milyard dollar itirilmiş gəlir deməkdir ki, bu da Almaniyanın illik ÜDM-nin təxminən 1 faiz azalmasına bərabərdir və ya Latviya və ya Estoniya kimi ölkələrin ÜDM-i ilə müqayisə edilə bilər.

Küveyt və İraqdakı iri neft yataqlarının normal fəaliyyətə qayıtması 4-5 ay çəkə bilər ki, bu da yay boyunca təchizat çatışmazlığına səbəb olacaq. Neft emalı zavodlarına və Qətərin Ras Laffan mayeləşdirilmiş təbii qaz kompleksinə dəyən ziyan o deməkdir ki, regional enerji infrastrukturunun tam bərpası illər çəkə bilər. Bəzi analitiklər proqnozlaşdırırlar ki, ABŞ və İran sabah razılığa gəlsələr belə, bazarların normal vəziyyətə qayıtması üçün daha 4 ay vaxt lazım olacaq. Buna görə də, proqnozlara görə, 2026-cı ildə planlaşdırılan qlobal neft hasilatı təxminən 3 faizi azalacaq. Qaza gəldikdə isə, Ras Laffan yatağında hər ay baş verən fasilələr təxminən 7 milyon ton mayeləşdirilmiş təbii qaz itkisinə səbəb olur. Bu, proqnozlaşdırılan illik tədarükün təxminən 2 milyon tonudur.

Qətər bu gün hasilata başlasa belə, istehsal tələbdən 4 faiz aşağı olacaq. Lakin bu ehtimal əsasən nəzəri xarakter daşıyır. Qətərin zədələnmiş qaz infrastrukturunun təmiri 5 ilə qədər çəkə bilər. Bu müddət ərzində Hörmüz boğazında nəqliyyatın tam bərpa olunmasına baxmayaraq, qlobal bazarda qaz çatışmazlığı davam edə bilər.

Lakin boğazda nəqliyyatın nə vaxt bərpa olunacağı məlum deyil. Cümə günü İranın xarici işlər naziri Abbas Əraqçi boğazdan nəqliyyatın hərəkətinin yenidən açıldığını açıqladı.

Buna dərhal ABŞ prezidenti Donald Tramp cavab verdi. O, İrana təşəkkür etdi və... İran limanlarının blokadasının davam etdiriləcəyini elan etdi. Bundan sonra Tehran elan etdi ki, əgər belə olsa, Hörmüz boğazından gəmilərin keçidinin yenidən bağlanacağı gözlənilir. Bütün bunlar bir neçə saat çəkdi və nəticədə boğaza doğru gedən gəmilər geri dönmək məcburiyyətində qaldılar. Buna görə də boğazın nə vaxt açılacağını proqnozlaşdırmaq tamamilə qeyri-realdır.

Beynəlxalq Enerji Agentliyi hesab edir ki, yanacaq qiymətlərinin kəskin artmasına hazırlaşmalıyıq. Fevral ayında tankerlərə yüklənən Yaxın Şərq nefti artıq alıcılara çatdığı və mart ayında heç bir daşınma olmadığı üçün BEA direktoru Fatih Birol bildirib ki, hərbi münaqişə səbəbindən Yaxın Şərqdə itirilən istehsal həcmlərini bərpa etmək təxminən 2 il çəkəcək.

Lakin bu qiymətləndirmələr konkret ölkədən asılı olaraq çox dəyişəcək. Birol hesab edir ki, məsələn, İraqın bərpası Səudiyyə Ərəbistanınınkından xeyli uzun çəkəcək. Onu da əlavə etmək lazımdır ki, bu, cari proqnozdur. Məsələn, münaqişə uzanarsa, bu qiymətləndirmələr dəyişə bilər.

Mart ayında BEA İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin ehtiyatlarından 400 milyon barel neftin azad edilməsini təsdiqləyib. Bu rəqəm təsirli görünə bilər, amma əslində bu, təxminən 4 günlük qlobal istehlaka bərabərdir. Beləliklə, bu, vəziyyəti kökündən dəyişdirməyəcək. Əlavə etmək lazımdır ki, İraq hakimiyyəti əvvəllər şirkətlərin münaqişə başlamazdan əvvəlki neft hasilatı həcmini bərpa etməsi üçün 1 həftəyə ehtiyac duyacağını bildirmişdi. Lakin, dünyanın 2-ci ən böyük mayeləşdirilmiş təbii qaz tədarükçüsü olan Qətər istehsal gücünün 17 faizini itirib. Bəzi ekspertlərin hesablamalarına görə, onu bərpa etmək üçün 3-5 il vaxt lazım olacaq.

Xatırladaq ki, ABŞ maliyyə naziri Skott Bessent əvvəllər Vaşinqtonun dənizdə tankerlərdə saxlanılan Rusiya neftinin alınmasına icazə verən lisenziyanı yeniləməyəcəyini açıqlamışdı. Bu lisenziya 11 aprelə qədər qüvvədə idi.

Lakin, The Business Standard-ın məlumatına görə, ABŞ Banqladeşə Rusiya neft məhsullarının idxalına müvəqqəti qadağanı 60 gün müddətinə uzatmaq qərarına gəlib. Göründüyü kimi, qlobal neft və qaz bazarında böhran getdikcə kəskinləşir və hətta sülh əldə olunacağı təqdirdə belə əvvəlki hasilatın bərpa edilməsi üçün az bir neçə ay vaxt lazım gələcək. Bu isə dünyada enerjinin və istehsal məhsullarının bahalaşmasına səbəb olacaq.

***Elçin Bayramlı***

# Niderland parlamenti absurd qərarı ilə özünü rüsvay etdi

Qədim tarixə, zəngin mədəniyyətə malik Azərbaycan bugünkü uğurları ilə yeni tarix yazır. Bu tarixi yazan isə xalqımızın lideri, Qarabağ Fatehi Cənab İlham Əliyevdir. Məhz Fateh Sərkərdə İlham Əliyevin diplomatik bacarığı, uzaqgörən müdrik siyasəti nəticəsində 30 il erməni işğalı atında olmuş torpaqlarımız cəmi 44 gün ərzində azad edildi. 23 saat 44 dəqiqə çəkən antiterror əməliyyatları ilə Qarabağdakı separatizmə son qoyuldu və insanlıq əleyhinə hərbi cinayətlər törədən canilər həbs edilərək istintaq orqanlarına təhvil verildilər. Artıq hərbi canilərə məhkəmə qurulub və onların hər biri məhkəmənin qərarı ilə layiq olduqları cəzanı alıblar. Bu gün işğaldan azad edilən ərazilərimiz rahat nəfəs alır. Prezidentimiz İlham Əliyevin uğurlu siyasəti nəticəsində Qarabağımız yenidən qurulur və inkişaf edir. Geniş miqyas alan tikinti, təmir və bərpa işlərindən sonra keçmiş qaçqın və məcburi köçkünlər öz doğma yurd-yuvalarına qayıtmaqla Qarabağımıza yeni nəfəs gətirirlər. Prezidentimiz İlham Əliyevin də dediyi kimi, "Qarabağımız cənnətə çevrilir".

Azərbaycanın cəbhədə olduğu kimi işğaldan azad edilmiş ərazilərin qurulmasında möhtəşəm zəfərlərə imza atması dostları sevindirir, düşmənin isə bağrını yarır. Erməni maraqlarından çıxış edən bəzi xarici qüvvələr, eləcə də dövlətlər vaxtaşırı olaraq Azərbaycan haqqında qərəzli, açıqlamalar yayır, qərarlar qəbul edirlər. Hətta elə dövlətlərin parlamentləri var ki, onlar nasizmin və ermənizmin təzyiqi ilə hazırda həbsxanada cəzalarını çəkən Ermənistan Respublikasının vətəndaşları olan hərbi canilərin azad edilməsi ilə bağlı bəyanata yayırlar. Belə qətnamələr, bəyanatlar sadəcə kağız parçasından başqa bir şey olmasa da, müəyyən baxış bucağında bu kimi hallar təəccüb doğurur. Çünki dünya terrorizmdən əziyyət çəkdiyi halda Avropanın bəzi dövlətləri terrorçuları himayə edən açıqlamalar yayırlar, siyasətçiləri bəyanatlar səsləndirirlər.



Beynəlxalq norma və prinsiplərə görə, hər hansı dövlət başqa bir suveren dövlətin iç məsələlərini müzakirə edə və hər hansı bir qərarla çıxış edə bilməz. Lakin Avropanın və Rusiyanın bəzi ünsürləri öz daxili ağır problemlərini unudub Azərbaycanla bağlı məsələləri özlərinin dayaz düşüncələrinə və terrorçu xislətlərinə uyğun müzakirə edib, biabırçı qətnamələr qəbul edirlər. Bu günlər Niderland və Belçika parlamentlərinin nümayəndələr palatalarının Azərbaycan əleyhinə növbəti absurd qətnamə qəbul etməklə, şər yuvasına çevrildiklərini nümayiş etdirdilər.

## Erməni lobbisinin xüsusi tapşırığı ilə qəbul edilən sənəd

Aprelin 16-da Niderland parlamentinin nümayəndələr palatası deputat Don Sederin təklifi ilə Bakıda Azərbaycana və onun vətəndaşlarına qarşı cinayətlər törətməkdə təqsirli bilinərək həbs edilən erməni terrorçuları və qondarma erməni soyqırımının tanınması haqqında sənədlə hökumətə müraciət edib. Elə həmin gün Belçika parlamentinin nümayəndələr palatası deputat Mişel de Maqdanın oxşar məzmunlu sənədini qəbul edib. Sənəddə həmçinin Azərbaycanı könüllü tərk etmiş Qarabağ ermənilərinin geri qaytarılması tələb olunur. Sual edilir, belə gülünc sənədin qəbul edilməsi beynəlxalq hüququn kobud şəkildə pozulması deyilmi? Azərbaycanın işğal edilmiş Qarabağ ərazisində terror aktları törədən, mülk şəxslərə qarşı kütləvi qətliamlar həyata keçirən və beynəlxalq humanitar hüquqa zidd addımlar atan Ermənistan Respublikasının vətəndaşları olan canilərin "erməni hərbi əsirləri" kimi qələmə verilərək, onların azad edilməsini iddia etmək beynəlxalq terrorizmin dövlət səviyyəsində dəstəklənməsi demək deyilmi?

Araşdırmalar təsdiq edir ki, Niderland və Belçika parlamentləri özlərini rüsvay edən sənəd qəbul etmələrinin arxasında erməni lobbisinin təsiri, nasistlərin tələbi dayanır. Çünki bu iki oyuncaq quruluş birbaşa ermənizmin və nasizmin təsiri altındadılar. Dəfələrlə Niderland və Belçika parlamentlərində Azərbaycana qarşı qərəz beynəlxalq ictimaiyyəti, demokratik düşüncəli xalqları təəccübləndirən sifarişli səslər qəbul ediblər. Növbəti sual yaranır, Belçika və Niderland dövlətləri Azərbaycanın ərazi bütövlüyünü tanıdıqları halda nədən parlamentləri rüsvayçı qətnamə qəbul ediblər? Sualın cavabı aydındır, onlar müstəqil deyillər və ermənizmin və nasizmin tələbi ilə beynəlxalq hüquqa zidd sənəd qəbul ediblər. Nəzərə almaq lazımdır ki, hazırda Niderland daxilində əsas idarəetmə nasistlərin əlindədir. Çox vaxtı hakimiyyət müstəqil mövqe sərgiləməyə cəhd edən zaman kabinet üzvləri ya öldürülür, ya da şantaj olunurlar. Bəzi hallarda isə baş nazirə təsir etmək üçün nasistlər hökumət üzvlərinin istefalarını təşkil edirlər.

## Nasizm Niderlandın siyasi hakimiyyətini ələ alır

Məlum faktdır ki, artıq Avropada nasizm açıq şəkildə fəaliyyət göstərir. Hətta dövlətlər nasist təşkilatlarının maliyyələşməsinə büdcədən milyardlarla vəsait ayırırlar. Bir qədər əvvəl Niderlanda, Belçika və Finlandiyada keçirilən seçkilərdə Adolf Hitlerin əqidə dostları, nasizm tərəfdarları əsas namizəd kimi irəli sürülüb. Niderlanda, Belçika və Finlandiya KİV-ləri Adolf Hiterin küçələrdə divarlara yapışdırılan şəkillərini və "Səs ver və qalib ol" çağırışlarını dərc edib, paylaşıblar. Məlumata görə, nasizmin təbliğatçısı rolunda mərkəzi ofisi Almaniyada yerləşən və bütün Avropanı əhatə edən "Peqida" neofaşist gənclər təşkilatı çıxış edir. Finladiyanın qeyri-rəsmi dövlət nəşri olan "Yle" bu barədə məqaləsində qeyd edir ki, əhali nasistlərə müsbət yanaşırlar: "Onlar vətəndaşları nasist lideri Adolf Hitlerə səs verməyə çağırıblar. Seçim düzgün olsa ölkəmiz gücü olar və əhalimiz daha yaxşı və firavan yaşayır qazanar Vərəqələrdə onun nömrəsi 88-dir. Neonasist simvolizmində bu rəqəm nasistlərin "Heil Hitler" salamına istinad edir".

Almaniyanın, Fransanın, Niderlandın, Belçikanın və İtaliyanın tutduğu yol daha təhlükəlidir. Çünki faşizmin yenidən baş qaldırması üçün sözügedən dövlətlərin geniş fəallıq nümayiş etdirirlər. Həm də bu işin qurulması üçün milyardlar xərcləyirlər. Bu isə növbəti faciələrin baş verməsinə gətirib çıxara bilər. Nəzərə almaq lazımdır ki, ikinci dünya müharibəsi illərində Adolf Hitlerin ən yaxın müttəfiqləri Niderland, Yaponiya və İtaliya dövlətləri olmuşlar. Ona görə, tərəqqipərvər xalqlar və nüfuzlu beynəlxalq təşkilatlar ehtiyatlı və tədbirli olmalıdırlar.

***İLHAM ƏLİYEV***



# VULKAN



Valeh Sefiyev

(Poema)

- Ana, bu ermənilər -
Başına külələnib,
Qapısı kilidlənib
Bu yerə girməlilər
Nə murdar millət imiş !..
Başdan-başa rəzalət,
Çirkab, üfunət imiş.
Dəhşətə bax! Onların
Min cür sifətləri var.
Əxlaq tanımır onlar. –
Nə utanan üzləri,
Nə də qeyrətləri var.
Onların dünyasında
Yoxa çıxıb namus, ar.
Bəşərə yaraşarmı
Bu biyabırçılıqlar?!..
Müharibədir deyib
Dondan-dona girirlər. –
Körpəni şaqqalayıb,
Qocanı öldürürlər.
Bizim gəlini, qızı
Yoxdur bizi unudan!
Mənfur qonşumuz kimi
Düşmən axtarmamışıq
Doğulanda anadan.
... Eralar yola salıb! –
Qocadır millətimiz.
Ali ruh sahibidir,
Ucadır millətimiz.
Çox imtahandan keçib,
Yüz dəfə ölçüb-biçib:
Yaxşı nədir, pis nədir?!
Adımızın rəhnidir
İnsanlıq şöhrətimiz.
Gücsüzə qılınc çalıb,
Güclünün qabağında
Tir-tab uzanmamışıq.
O yanda qürrələnib,
Bu yanda sınmamışıq.
İnsanlıq eşqimizi
Asan qazanmamışıq.
Xeyrimiz az olmayib,
Ziyana da getmişik.
Əsr-əsr can qoyub

***Mübariz İbrahimov bütün gənclərimiz üçün örnəkdir, nümunədir.***
***<u>İlham Əliyev</u>***
***Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan.***

**** * ****

***Milli Qəhrəmanımız Mübariz İbrahimovun əziz xatirəsinə ithaf edirəm.***
***Seyid nəvəsi olaraq bunu etməliyəm.***
***Mübariz İbrahimovun anasına məktubundan***
***Söz də, Meydan da Mübarizindir***
***(cəbhədən məktub)***

Əsir də götürürlər ...
Nə yaramazlıq desən
Çıxa bilər bunlardan –
Bu qansız məlunlardan.
Vicdansız məlunlardan. –
Lap iyrəndim onlardan.
Ürəyim bərk bulandı.
Ödüm ağzımdan gəldi,
Başım da gicəlləndi.
O, böyük yaradanın
Şükür məsləhətinə
Bizi salıb çətinə :
Yaranışdan, binadan,
Bu dünya qurulandan
İlk saatdan, ilk andan
Bizimki gətirməyib –
Bu haylar hardan gəldi,
Bizə belə calandı?! –
Bizim qonşumuz oldu,
Vətəndaşımız oldu?!
Biz urfan işığında
Böyümüşük bəxtiyar.
Halaldır çörəyimiz,
Açıqdır ürəyimiz,
Xoş danışan dilimiz,
Xeyirxah elimiz var.
Qabar-qabar,
mərd, təmiz,
Əl tutan əlimiz var.
Qardaş,sirdaş gəzmişik
Dünyaya göz açandan.
Budur bizi yaşadan,
Təqdim edən, tanıdan,
Çoxdur bizə güvənən,
Bel bağlayan, inanan. –
Əzabkeşlik etmişik
Heç vaxt itirməmişik,
Ayağa verməmişik
Öz insanlığımızı ;
Bu ruhumuza hopan,
Bizim varlığımızada
Əbədi məskən salan,
Dinclik, rahatlıq tapan
Yüksək amalımızı –
Mehribanlığımızı,
İstiqanlığımızı.
Yaşayıb-yaratmışıq,
İşığa can atmışıq.
Dünyada daşdan keçən
Söz yiyəsi olmuşuq.
Ağlımız, tərbiyəmiz,
Əlçatmaz səviyyəmiz, -
Biz kamala dolmuşuq.
Alnımızda qırış yox.
Qəlbimizdə xainlik,
Həsəd, nifrət, qarğış yox.
...Düşmən tapdağındadır!
Torpağım dad eləyir.
Murdarlanmaq istəmir,
Bizdən imdad diləyir.
Torpağın da dili var. –
Qulaqlarım eşidir,
Amandayam, nə deyir.
Bəlalı torpağımız
Elə bil heç kəsə yox,
Mənə tutub üzünü,
Mənə dikib gözünü,
Nə deyir mənə deyir
Boynuma düşən yükdən,
Ağırlıqdan, çəkidən
Az qalır boynum sınsın,
Nəfəsim də dayansın ...
Gözlərim qaralıbdır.
Əziz Anam! Elə bil
Tək Azərbaycan deyil,
Bu boyda yer kürəsi
Boynuma sarılıbdır,
İnciməmişəm ondan,
Əli çıxıb hər yandan
Mənim sınıq qolumdur,
Boynumdan asılıbdır,
Şərdən, bəladan qaçan,
Şikəst, yaralı cahan
Qoynuma qısılıbdır,
Öz doğma balasından –
Məndən nicat istəyir,
Azad həyat istəyir.

***

Mənə öyüd-nəsihət
Verən adam çox olub.
Ay Ana! Mənim canım
Boğazıma yığılıb.
Səbir ilə iş aşmır,
Dözmək mənə yaraşmır,
Seyid nəvəsiyəm Mən!
Quş başı da kəsməzdim.
Qan tökmək istəməzdim.
Qurana and içmişdim.
Day belə dəməmişdim.
Asimandan enmişəm!
Çıxıb yerin dibindən
İntiqam almaliyam
Mən bu şərəfsizlərdən.
...Dünyanın işlərindən
Tamam xəbərsiz oldum,
Bağışla, fərsiz oldum,
Bir az gecikdim, Ana!
“Böyüklərin” ağzına
Gözümü dikdim, Ana!
Onların kərəminə
Bel bağladım, inandım,
Güvəndim, arxalandım,
Əl saxladım, dayandım,
Çox əzab çəkdim, Ana!
Belə getməz!- deyirdim.
Ürəyim, döz!- deyirdim.
Dünyada haqq, ədalət,
Rəhim, insaf, mürüvvət,
İnsanlıq var! – deyirdim.
Üfüqlər işıqlanıb
Tez-tez sökülürdü dan.
Gözümü yumurmuşam,
Xəyala dalırmışam.
Qaynar, qatı ilğımdan
Can, şəfa umurmuşam.
Ləzzət, zövq alırmışam.
Az qalıb, qan-qadasız
Təhlükəsiz, xatasız
Torpaqlarım işğaldan
Azad olar!- deyirdim.
İnsanlıq var!- deyirdim.
İlləri sovuşdurub
Arxayın, gülə-gülə, -
Belə də yaşayırdım,
Hələ də yaşayırdım.
...Yadımdadır, Ay Ana!
Səninlə vidalaşıb
Son dəfə ayrılanda
Göz yaşını silmişdin,
Boynumu qucaqlayıb
Üzümə də gülmüşdün.
“Oğul salamat gedib,
Salamat qayıdasan!” –
Kövrəlib doluxsunub
Yana-yana demişdin.
Yaxşı yuxu görmüşdün.
Sədəqə də vermişdin.
Xəbər də göndərmişdin,
Məni sevindirmişdin.
Ancaq, bilmirdin, Ana!
Həmin gün sağollaşıb
Cəbhəyə yollananda
Mənə olan olmuşdu.
Səbir kasam dolmuşdu
Mən sinəmi gərmişdin.
Qəti qərar vermişdim –
Bu mənim son səfərim,
Son gedişim olacaq.
Şəhidlik zirvəsinə
Yüksəlişim olacaq.
Sən arxamca su atdın;
Dönüb gözünə baxdım,
Ürəyimi qanatdın.
Mənim nə çəkdiyimi
Ana, çoxları bilmir.
Evimizə qayıdıb
Sənin nurlu üzünə
Baxmağa üzüm gəlmir
Daha fikir eləmə
Mən səni unutmuşam.
Ayrı bir səmtə, yana,
Dərgaha üz tutmuşam.
Yadımdadır o illər.
Yeri oldu-olmadı
Məni bağrına basıb
Yanağımdan öpərdin
Səhərdən axşamacan
Uşaq oyunlarından
Ayılmayan başıma
Tez-tez sığal çəkərdin
Yenə ehtiyacım var
O sığalına, Ana!
Sən nə iş tapşırsaydın,
Vuruşub əlləşərdim,
Haldan, dildən düşərdim
Yetirərdim yerinə;
Mən səni çox sevirəm,
O Mübarizəm yenə!
Canla, başla hazıram
Bir işinə yarıyam.
Axı yenə möhtacam
Bir “sag ol!”una, Ana!
Yadımdadır, əzizim
Elə oturub-durub
Məni əzizləyərdin, -
Yox idi başqa dərdin.
Elə burdan buraya
Qonşuya gedəndə də
Arxamca su atardın.
Ayağıma daş dəysə
Yenə də hamıdan tez
Sən dadıma çatardın.
Yadımdadır, son gecə
Qoyub təlaş içində
Yalvar-yaxar eləyib
Səni ovutmamışdım.
Özüm də yatmamışdım.
Oyaq idim, görürdüm
Bütün oturuşuna,
Duruşuna, əzizim
Baxıb fikir verirdim.
Heç nə, heç nə, Ay Anam,
Nəzərimdən qaçmırdı.
Sənin yanında idim,
Xəyalım da göylərə
Pərvazlanıb uçmurdu.
Əziz Anam! O axşam
Sübh namazına da
Hamıdan tez durmuşdun.
Namaz üstündə də Sən
Mənim üçün ürəkdən
Bol-bol dua edirdin.
Bəzən huş aparırdı,
Qəlbində, xəyalında
Hardan hara gedirdin.
Gözüm səndəydi, Ana!
Əl atsan da hər yana
Dərdin azalmamışdı.
Başqa bir ümid yerin,
Pənahın qalmamışdı
Yaman bərk darıxırdın.
Müsəllayə çıxırdın.
Göylərə əl açırdın,
Yalvarıb, yaxarırdın.
O gözəgörünməzi
Köməyə çağırırdın.
Ana, bunlar hamısı
Olub keçibdir, neynək.
Mənim torpaqlarımda
Düşmənim at oynadır,
Orda kefdə, damaqda.
Bükülüb bir bucaqda
Biz başımıza döyək,
Taleydən gileylənək?!..
Xəcalət çəkirəm mən.
Qapqara qanlar gedir
Ana, mənim qəlbimdən.
Doğrudur, həqiqətdir:
İgidəm, yaraşıqlı,
Dizim pəhləvan dizi,
Üzüm də işıqlı,
Öyünməyinə dəyməz,
Güvənməyinə dəyməz.
Yoxdur məndə cəsarət,
O qeyrət, o qətiyyət.
Nifrət, nifrət, min nifrət!
Mənə bağışladığın,
Hələ də oxaşdığın
Bu boy-buxuna, Ana!
Mən daha yaşamıram.
Bu gəzib-dolanmağım,
Yeyib-içməyim haram.
Bu ağır, bəd rüzgarım
Heç xəyalına gəlməz,
Girməz yuxuna, Ana!
Dünya tamaşa edir, -
Bütün müqəddəratım,
Həyatım əldən gedir.
Qanlı 20 Yanvar –
Doğranan vicdanımız.
Xocalı faciəsi –
Yerdə qalan qanımız
Ana, bu nə yaşamaq,
Nə zülümdür düşmüşük?!
Ana, nə oğuluq biz? -
Tablaşır ürəyimiz.
Kim bizə edib yasaq?
Biz harda döyüşmüşük?..
Odlara atılmışıq
Namərd, murdar
düşmənin
Ayaqları altında
Tapdanıb gedəcəyik. –
Yox olub itəcəyik.
Kim bizi tanıyacaq?
Bizdən seçilməyəcək
Yerdə gəzən böcəklər.
El bizi qınayacaq.
Sabah demiyəcəklər
Vətən, Millət yolunda
Canımızdan keçmişik,
Qanımızdan keçmişik.
Vətənim düşüb dara.
Sağ ciynimdə pulemyot,
Sol əlimdə qumbara
Düşmənimin üstünə
Mən tək gedirəm, Ana!
Haqqını halal elə!

Ardı Səh. 6

Əvvəli Səh. 5

Vətənimin yolunda,
Millətimin yolunda
Can qatdığın canımı
Fəda edirəm, Ana!
Şəhid olacağam Mən!
Atama da xəbər ver,
Onu da şərəfləndir.
Allah qoysa, cənnətdə, -
Rəbbimin hüzurunda
Biz görüşərik, Ana!
Yenə də can deyərik,
Can eşidərik, Ana!
Ana, qurbanın olum
Bilirəm körpəlikdən
Məni çox istəyirdin.
Dəcəlliyim də vardı –
Sən də bağışlayardın,
Atam da bağışlardı.
Mən evə gələnəcən,
Yatmayıb, səhərəcən
Yolumu gözləyirdin.
Ana, məni itirmək
Bilirəm sənin üçün
Yaman ağır olacaq.
Bütün həyatın boyu
Məni axtaracaqsan,
Məni gözləyəcəksən,
Gözün yolda qalacaq.
Səndən xahişim budur
Başını dik tut, Ana!
Qüssəni, qəmi, dərdi,
Ələmi unut, Ana!
Əhdimə çatmışam Mən!
Ağlama, ağı deyib.
Bayram libası geyib
Əksinə sevin, Ana!
Qalma ibadətindən,
Açılsın kefin, Ana !
Yaxşı yuxu görmüşdün.
Gözlərin aydın olsun,
Yuxun çin oldu, Ana!
Şadlanıb qürrələn ki,
Şəhidlik zirvəsinə
Oğlun ucaldı, Ana!
Düzdür, toy-bayram ilə
İnsan dünyaya gəlir.
Beş gün oynayır, gülür.
Anacaq, kim olursan ol
Nə fərqi, ya müqəsir,
Ya hakim olursan ol,
Əzrail keşikçidir.
Soruşmur kim necədir,
Ağadır, dilənçidir?!..
Çıxıb getsən də hara,
Heyhat, qarabaqara
O da düşüb dalınca
Qovur, izləyir səni,
Gözdən qoymur bir an da.
Nişanda, hədəfdəsən,
Sırada, növbədəsən.
Yüz yerdən qıfıllanmış
Dəmir qapılardan da
Vaxt çatdı, bir addım da
O, geriyə çəkilmir.
Yaradanın əmridir,
Ölüm haqdır, kim bilmir?
Doğma Vətənimizin
Başı sağ olsun, Ana!
Xəcalətli qalmasın! –
Xalqım xalqlar içində
Şərəfli, alnı acıq,
Üzü ağ olsun, Ana!
...deyirlər
Mübariz o gecədə
Qorxmaz, məğrur,
yenilməz,
Cəsur idi necə də?!..
Ruhumuz yüksəklərdə,
Qəlbimizdə şükranlıq. –
Çağır danışdır, dindir.
Uzaq qərinələri, -
Belə bir qəhrəmanlıq
İlk yaranışdan bəri
Nə aşkarlıqda, nə də
Dərin, şirin royada
Hələ eşidilməyib,
Görünməyib dünyada.
Götürdüyü güllələr,
Gətirdiyi güllələr
Qurtarandan sonra da
Qaranlıq kazarmada
Mübariz qeyzə dolub,
Düşmənlərimiz üçün
Sehr, sehrkar olub,
Alovdan köynək geyib,
Bir də, "ya Allah!" deyib
Öz silahları ilə -
Öz barıtları ilə,
Avtomatları ilə
Düşmənə qan uddurub.
Düşmənin qışlasında –
Məlunlar yuvasında
Mübariz sağdan vurub
Gəlib soldan çıxırdı.
Nə yalvar-yaxarlara,
Nə hiddətə baxırdı.
Qabağı ayaqlayıb
Arxaları biçirdi.
Anasına yazmışdı,
Halallıq da almışdı. –
Vətən, millət yolunda
Qəti bir yol tutmuşdu, -
Özünü unutmuşdu,
Öz canından keçirdi.
Gözünü də qırpmırdı,
Qorxu nədir, bilmirdi.
İrəli! Bir addım da
Geriyə çəkilmirdi.
Vurduğunu vurmuşdu.
Qırdığını qırmışdı,
Artıq əli boş idi, -
Sonuncu, axrıncı
Gülləyə oturmuşdu.
Deyirlər, Mübarizin
Qurtaranda gülləsi
O, daha da sərtləşib,
Şiddətlənib nərəsi.
Qanlıymış əli, üzü.
Ağlı başında imiş,
Şölə saçırmış gözü.
Vur-çatlasın, sübhün də
Bu yandan sərin mehi
Oxşayırmış üzünü,
O yandan bülur şehi
Yuyub təmizləyirmiş
Müqəddəs, pak edirmiş
Əlini, ayağını,
Açıq-al yanağını. –
Günəş təzə doğurmuş,
Tanrı da izləyirmiş.
İzini, tapşırığı –
Bu günü gözləyirmiş.
Mübariz arxalanıb
Qollarının gücünə
Silahlı, oturuşmuş
Bir qoşunun içinə
Çox böyük qəzəb ilə,
Coşqu ilə girirmiş.
Möcüzə göstərirmiş, -
Dünyaya dərs verirmiş.
Yapışıb boğazından, -
Mənfur, murdar düşməni
Sərçə kimi boğurmuş.
Əskəri, generalı
Bir-birinə qatırmış.
Öldürüb, leş eləyib
Bir kənara atırmış.
...Rəvayət eləyirlər,
Öz qulaqlarım ilə
Eşitmişəm, deyirlər.
Mübariz döyüşəndə
Göydə uçan mələklər
O tablonu çəkiblər.
Orda aydın görünür
O məlunlar sürünür.
Erməni zabitləri –
Ərzin sümsək itləri –
Düşmənlər Mübarizin
Cansız bədəninin də
Yanında diz çöküblər,
Dərin köks ötürüblər.
Dəsmal da götürüblər,
Göz yaşı da töküblər.
Alıb özündən izin,
Qorxa-qorxa, birtəhər
Qəhraman Mübarizin
Qolunu bağlayıblar.
Yenə də ağac-ağac
Öz olduqları yerdən
Uzaqda saxlayıblar.
...Neçə qış ötüb keçdi,
Yaz gəlib gülə-gülə
Mənfur düşmənlərimiz
Qorxu, təlaş içində,
Vahimədədir hələ.
Dünya onların idi,
Dünyanı itiriblər.
Mübariz onlar üçün
Dəhşətli kabus idi –
Belə insan olmazdı
Bəlkə yuxu görüblər?!..
Belə bir söhbət də var. –
Tale üzünə gülüb
Qəhraman Mübarizin
Qəzəbli gözlərindən,
Hiddətli nəzərindən
O vaxt yayına bilib,
Yorulub, dayanmayıb,
Gecikib, yubanmayıb
Tülkü böğazlarını
Dartıb, dartıb, ha dartıb
Cəngavər Mübarizin
Dəmir, sərt barmaqları
Arasından çıxardıb
Salamat qurtaranlar, -
O, murdarlar, məlunlar
Bu gün yaşaya bilmir.
Burda axtarmayın sirr.
Amansız, qan donduran
Bir sarsıntı keçirir,
Bu dünyada ən ağır
Ömürlük cəza çəkir. –
Küfr, nasəza edib,
Dözülməz ağrılardan
Canını xilas edib
Ölmək istəyir onlar.
O, ölümə məhkumlar,
O kafirlər, məlunlar
Nə qədər faciələr,
Dərdlər yaşadıb bizə?!..
Bütün ləyaqətini,
Yaşamaq qismətini
Borcludur hər birimiz
Davada həlak olan
Mərd igidlərimizə
Burda sinəmə sığmır.
Yüksək, uca duyğular.
Mənim etirazım var –
Razı deyiləm buna :
Niyə bir vətən oğlu
Ömrünü borclu olsun,
Başqa vətən oğluna?!..
Nifrətlər yağdırıram.
Müqəssirin, baisin
Görbagor dünəninə - 777
Arxadan dönəninə, –
Murdar, yaramaz, qırıq
Zatına, əcdadına:
Niyə mənim yolumda
Qıyıb cavan canına, –
Sevgi, məhəbbət dolu
Gənclik həyacanına
İşıqlı dünya ilə
Əbədi vidalaşsın, –
Başqası həlak olsun
Son qoysun həyatına?!
Əlim haraya çatır?
Baxıram göyə, yerə.
Dalmışam intəhasız
Ağır düşüncələrə.
Qalmışam yana-yana.
Ölüm uzaq səfərdir
Sözün bitdiyi yerdir.
Ömür bir yol verilir
Axı hər bir insana!..
Elimizdə yaz, bahar.
O ərlər, o igidlər
Keşkə sağ olaydılar.
Yığışıb gedərdik biz
Onların toylarına.
Gözlərimiz dolusu
Baxardıq boylarına.
Onlara canım qurban! –
Varam, nə qədər sağam,
Hər yerdə, hər bir zaman
Hər qəhramanımızdan
Bir dastan açacağam.
Çox-çox narahatam mən.
Binadan, əvvəlindən
Dünya belə olmayıb.
Heç bir xalq, heç bir xalqa
Nökər, kölə olmayıb.
Xarabalıq görməyib,
Hər yan gülüstan olub
Həyat firavan olub.
Kasıblıq, aclıq, qıtlıq,
Dilənçilik olmayıb.
İnsanlar arasında
Düşmənçilik olmayıb.
Başına yığışmışıq,
Nisyə danışmışıq. –
Qarası, ağı ilə,
Könül xoşluğu ilə
Tanrımızın əlindən
Götürmüşük dünyanı.
İblisinə uymuşuq,
Gör nə günə
qoymuşuq?!..
Sağımız, solumuz dərd.
Möhtacdır namərdə mərd.
Tamahımız iti, çox.
Təmiz, candan, ürəkdən
Bir ibadətimiz yox.
Nicat yolu qalıbmı? –
Arzumuz, diləyimiz
Bir saf, xoş niyyət ilə
Aça bilsin qol-qanad?!..
Bizi başlıbaşına
Nahaq yerə buraxıb.
Evlərimiz yıxılıb
Nahaq qanımız axıb. –
Uzaq eralar boyu
Yalın ayağımızın
Altı qaranlıq quyu.
Neçə-neçə Nəmrudlar,
Fironlar doğulub.
Dönmüşük qurbanlığa
İnsana, insanlığa, -
Bizə olanlar olub.
Gecdir, gecikib Tanrı.
Od bürüyüb dünyanı. –
Onu eşidən hanı?
Ordan nalə yüksəlir. –
Kimə nə deyə bilir?
Onun qərarı ilə
Indi kim hesablaşır,
Kim gəlir, kim çəkilir?
Silaha sarılmışdı,
Görmüşdü yağlı ovu.
Bonapartda, Hitlerdə
Var idi Allah xofu?
Torpaq da, asiman da
Cavab intizarında
Keçən əsrin ortası
Ərzin dözülməz, ağır,
Bəraətsiz xatası.-
Qaz kameralarında
Boğulan insanları,
Qırılan milyonları
Hansı kitaba yazaq?
Kimdən hesab soruşaq?
Geriyə boylandıqca
Bağrımı nizə dəlir.
O böyük yaradanın
Bizdən acığı gəlir.
Xəyanət eləmişik
Onun əmanətinə.
Nankor, quduz olmuşuq.
Etinasız olmuşuq
Onun mərhəmətinə,
Əlçatmaz dərgahına,
Uca səltənətinə.
Öz qadir əlini də
Deyəsən, üstümüzdən
Əbədi çəkib Tanrı.
Gözlərini tutub qan.
Çox qəddarlaşıb zaman
Deyim?- Deməli deyil,
Bir mərtəbəli deyil,
Günahlarımız qat-qat.
Əlimizdə salamat
Saxlaya bilməmişik,
İtirmişik dünyanı.
İndi Diogen kimi
Gündüz, gün işığında
Milyonların qəlbində
Bir döğru söz, həqiqət,
Xeyirxahlıq, ədalət,
Bir xoş niyyət gəzirik.
Səmimiyyət gəzirik.
Əlimizdə şam, çıraq.
Nə vaxtdır üzümüzdən
Qaçaqdır şadlıq, sevinc.
Təmiz, xoş niyyət ilə
Başımıza əl çəkib
Qolumuza girmirlər. –
İmkan, aman vermirlər
Beş gün rahat, sakit, dinc
Yerimizdə oturaq.
Xalqımız çox uludur! –
Xəyanətkar olmaqdan,
Qisasçılıqdan uzaq.
İllər, əsrlər boyu
Biz üfürə-üfürə
İçmişik duru suyu.
Əldən buraxmamışıq
Öz ehtiyatımızı.
Qonşuya, dosta, yada
Ziyan yetirməmişik,
Bəla gətirməmişik, –
Şərdə axtarmamışıq
Müqəddəratımızı.
Cəsur adımız ilə
Dünyaya salmışıq səs
Bizimlə çilingağac
Oynaya bilməz heç kəs.
İtkisi az olmayıb, –
Başyolduda, şivəndə.
Ağlı başına gəlsin,
Unutmasın düşmən də,
Hesab itməyib hələ,
Onların mini belə
Bir Xudayarımızın. –
Şair ruhlu, mehriban,
Yazıb-yaradan insan
O nəğməkarımızın
Heç o çölə atılmış
Dırnağına da dəyməz.
Heyran idik biz onun
Ağlına, kamalına,
Nəğməli dünyasının
Hüsnünə, calalına. –
Onun əvəzi hanı?!..
Yoxluğu yıxdı bizi.
Yandırdı, yaxdı bizi.
Qəlbimizin ağrısı
Alabəzək elədi
Bütün ərzi, cahanı.
Bu gün bu dünya üzü
Burda işıqlı, cənnət
Orda qaranlıq, zülmət
Görünür gözümüzə.
Çətin, çətin ovunaq,
100 ilə, 300 ilə
Bütün varlığımızla
Oynayıb gülə-gülə
Qayıdaq özümüzə.
Deyilənlər doğrusa,
Mən də elə, ulusa
Qoşulub şad oluram.
Qara buludlar kimi
Boşalıram, doluram.
Qələbə bizimlədir! –
Burda toya gedirəm
Geriyə qayıdıram,
Orda xiffət edirəm.
Daşaltı dəhşətini
Necə unutmaq olar?
Mənim dünyam tarımar.
Başın sağ olsun Vətən!
Düşmənə əsir düşən,
Orda qaynar şiş ilə
Qolu bağlı, köməksiz
Arxaları üstündə
(Belə murdarlıq olmaz,
Belə qəddarlıq olmaz.
Aydındır, bilirik ki,
İlanın zəhəri var.
Qandır, müharibədir,
Ölüm-itim də olar.
Ancaq bir təhəri var
Cəzanın da, qəsdin də.)
Uzandıqları yerdə
Ürəkləri deşilən,
Enli kürək, gen sinə –
Oğul deyirəm sənə
Seçmə, lay divar kimi,
Cəsur, canavar kimi
Xəyanətin qurbanı
(Bəs o xainlər hanı?
Möhtərəm xalqımızın
Hüzurunda onların
Bilindimi ünvanı?
Quruldumu divanı? –
Çətin, ağır suallar
Bizdən cavab istəyir.
Əl çəkmir yaxamızdan,
Qapımızı şər döyür.
Bu tərəf doğru deyir,
O tərəf işi əyir.
Qapımızı şər döyür.)
Öz elimin, obamın
Əziz balalarını
Vətən qalalarını,
O igidlərimizi,
O şəhidlərimizi
Hər an xatırlayıram,
Ürəyim olmur aram.
Yanır bağrımın başı.
Elə durduğum yerdə
Axır gözümün yaşı.
Mübariz...
Mənim əziz oxucum
Burda bir haşiyəm var.
Yazmasam bağrım çatlar.
Səndə onu oxuyub
Boylanıb dan yerinə,
Xoşbəxt gələcəyimiz,
Sabahımız xətrinə
Sözünü deməlisən.
Susmaq zamanı deyil.
Sinəni acmalisan,
Heç yorulmamalısan.
Səndə vardısa vicdan
Yalandan qaçmalısan.
Burda danışıq, söhbət
Kimdən gedir, bilirsən.
Burda qarşında durub –
Qoşa, yanaşı durub
Şəhid Mübariz- Vətən!
Burda baş əyməlisən.
Əlin sinən üstündə
Təzim eləməlisən.
Ruhunun qətiyyəti
Nəfsini yıxmalıdır.
Üzünə çıxmalıdır
Ürəyinin, canının
Bütün səmimiyyəti.
Doğrunu, həqiqəti
Düzünü deməlisən:
Qanına qəltan olub
Can verəndə Mübariz, –
Vətəndaşlıq borcunu
Şərəflə, ləyaqətlə,
Məhəbbətlə, qüdrətlə,
Məharətlə yerinə
Yetirəndə Mübariz
Bulvarda, restoranda
Xanımlarla əylənib
Kefə baxan "igidlər"
(Bacarmadım, nə edim?
Onlara igid dedim.
Bağışlasın şəhidlər!)
Qəhraman xalqımıza
Bu gün hesab verirlər?!
Yoxsa, başda oturub
Gözümüzü çıxardıb,
Başımızı kəsirlər?
Mübariz də canını
Kövşəndən tapmamışdı.
Haram qazanmamışdı,
Əllərdən qapmamışdı.
Mübariz təkbaşına
Çıxıb cəngə, savaşa
Qəddar düşmənimizin
Komunu qırıb-çatıb.
Həmin axşam, həmin gün
Büsbütün Ermənistan –
Bir ölkə yasa batıb.
Heyrət edənlər nə çox!..
Burda bir möcüzə yox!..
Burda bizim Mübariz
Öz ruhunu ovudub,
Qəzəbini soyudub.
O da vətəndaş idi!
Mənim qonşuluğumda
Əzizlərim, onu da
Sadə bir kənd qadını
Doğub, bələyib, büküb,
Sevə-sevə böyüdüb,
Çatdırıb boya-başa.
İlk yaşlarından belə
Çox seçilib, fərqlənib
Yoldaşlarından belə.
Ovu gözündən vurub,
Heç zaman Mübarizin
Oxu getməyib boşa.

Ardı Səh. 7

Əvvəli Səh. 6

O, bir halal ocaqdan,
Ailədən çıxmışdı.
O da körpə olmuşdu.
Gözü yaşla dolmuşdu.
O da anası üçün
Beşikdə darıxmışdı.
Bəli, əziz oxucum
O, bir imanı kamil
Seyid ailəsində
Dünyaya göz açmışdı.
Körpə yaşında belə
O, haramdan qaçmışdı.
Bilməzdi yazdı, qışdı, –
Bütün günü bayırda
Kənd uşaqları ilə
Gülmüşdü, oynamışdı.
Nahaq bir sözə görə
Öz həddini aşmışdı, –
Küsmüşdü, dalaşmışdı.
Adi bir uşaq idi. –
Hamıya əziz bala.
Bəzən alınmaz qala,
Sınmaz, sarsılmaz ünvan,
Bəzən də çox mehriban,
Mülayim, yumşaq idi. –
Adi bir uşaq idi.
Sonra,.. sonra,.. sonra da
Böyük oğlan olmuşdu.
Kamala da dolmuşdu.
Bəlkə o da sevmişdi,
Bir qız da bəyənmişdi.
O bəxtikəm gözələ
Qəlbini də açmışdı.
Sevgisi dərya idi,
Gözündən oxunurdu. –
Yuxusu da qaçmışdı.
Bəlkə,.. bəlkə,.. bəlkə də,..
Mən Mübarizdən cəsur,
İgid, yenilməz, məğrur,
Arzuları işıqlı,
Mehriban, yaraşıqlı,
Cəsarətli qəhraman,
Mənə doğma bir İnsan
Tanımıram ölkədə.
Kim bunu dana bilər?
(Kimsə utana bilər!)
Bütün varlığım ilə,
Ruhum ilə şahidəm:
Bu Mübariz kim idi?!
Onun böyük qəlbində
Yüksək, şahin qanadı
Duyğular hakim idi.
Ən şirin royasında,
Müqəddəs dünyasında
Elinin dostu, yarı,
Vətənin xilaskarı.
Şərəfi, iftixarı. –
Öz bəxti, qədəriydi,
Dayandırmaq olmazdı
Saxlamaq, gecikdirmək,
Əhdi qirmaq olmazdı
O gün, o saat onun
Bir amalı var idi.
Qulaqları kar idi,
Başqa siqnalı, səsi
Eşitməzdi, calmazdı
Namus, qeyrət yeriydi,
Öz bəxti, qədəriydi,
Damarında qalmazdı.
Qanı seyid qanıydı. –
Əcdadlarından gəlmə
Cəsur igid qanıydı.
Vicdanında ləkə yox.
Bizim hamımızdan çox
Mübariz imiş sevən
Bu xalqı, bu milləti.
Əziz oxucum! Daha
Gəl burda başa vuraq,
Qurtaraq bu söhbəti.
Sabah nə desən olar.
İnciyən, küsən olar.
Əl-ayağa dolaşıb,
Çaşıb başından böyük
Qələt eləyən olar.
Azıb, həddini aşıb
Qəhrəmanımıza da –
Haqq uğrunda tökülən
Qızıl qanımız da
Tərs baxıb, dil uzadan,
Ağız büzüb şər atan,
Qulp qoyub, artıq-əskik
Danışıb-deyən olar. –
Çaşıb başından böyük
Qələt eləyən olar.
...Nə vaxtdır yol gəlirəm.
Gah irəli çıxıram,
Gah geri çəkilirəm.
Mənim əziz oxucum,
Burda bir az karıxdım.
Qəribsədim, darıxdım
Əstəğfurullah! Bu gün
Kim bunu bilmir axı?!
Aslanlar yuvasıdır
Yurdumun hər bucağı.
Biz öz taleyimizin
Keşiyində durmuşuq
Həmişə ayıq-sayıq
Şanlı hədəfimizin
Hələ harasındayıq?!..
Yorulmur biləyimiz,
Ağır işdən qaçmırıq.
Heç kəsə əl açmırıq.
Yad qapılardan gəlmir,
Suyumuz, çörəyimiz.
Səngərdən çıxmamışıq,
Yuyunmamışıq hələ
Əsgər libasımızı
Soyunmamışıq hələ
Qolumuz çırmalanıb,
Yenə də meydandayıq.
Köç gedir, karvandayıq.
Yenə də güc alırıq
Bir olmaqdan, birlikdən
Dünyanın o başında
Səsimiz, sorağımız,
Düşmənin gözlərini
Çıxardan barmağımız
Hələ də ayrılmayıb
Bir düymədən, tətikdən.
Sənətin ağır, çətin
Dolanbac yollarında
Duruş, tab gətirmişəm.
Kimin nə borcunadır,
Mən öz qəhrəmanıma
Nə təriflər yağdırıb,
Nə yaraşıq vermişəm?!
Doğrusu, mənlik deyil –
Heç cavab da vermirəm,
Cavab da gözləmirəm.
Öz ruhumdan süzülən
Bu etirazıma mən.
Qəsdimdir, ömrüm boyu
Nahaqqa yol verməræm.
Vətənimin naminə
Hazıram, səfərbərəm
Dişimlə, dırnağımla
Dağı da dələm, oyam;
Qabarlı əlim girən,
Bizə şərəf gətirən
Nəyim var, hamısını
Çəkib ortaya qoyam.

***

Didilirik dörd yandan.
Üstümüzə şər-böhtan,
Yalan, iftira yağır.
Bizim yolumuz düzdür,
Ürəyimiz təmizdir,
Allah da göydən baxır.
Nahaq olan yerlərdə
Yoxdur bizim izimiz.
Çoxdan bəyan etmişik,
Sadədir devizimiz:
Qardaş, deməyin bizə,
Biz də dəymərik sizə.
Biz maska taxmamışıq,
Heç zaman üzümüzə.
İkibaşlı danışmaq,
Qonşu xaini olmaq
Əsla, yaraşmaz bizə.
Sınmayıb qələmimiz,
Dayanmışıq keşikdə
Biz gecəli, gündüzlü.
Qoy o üzlü, bu üzlü
Alçaqlar, şərəfsizlər
Ağzının zibilini
Bayıra tökməsinlər.
Çox mırıldamasınlar,
Hürməsinlər bu qədər.
Yekə-yekə danışıb,
Öz-özünə qızışıb,
Çox da baş aparmasın.
Bir istəkanlıq suda
Fırtına qoparmasın.
Nankor, ağzıgöycəklər.
Rəhbər bilir, hardadır
Həqiqətlər, gercəklər.
Siyasət meydanında
Dünən nə deyilmişdir,
Sabah nə deyəcəklər?!..
Sinənizi az cırın.
Bir az yavaş qışqırın,
Hürküb az qeyzə dolun.
Rahat, arxayın olun.
Qəsdən salmayın şuluq
Əlimiz boş deyildir,
Evimizdə məşğuluq,
Hələ işimiz çoxdur.
Tarixin kargüzarı,
Yaradanı, yazarı
Olmaq fikrimiz yoxdur.

***

Daş-kəsək deyilik biz,
Vuran, duyan qəlbimiz. –
Biz də ömür sürmüşük.
Fırtınadan doğulub
Susmuşuq, kirimişik.
Bizi atdan salıblar,
Piyada yerimişik.
Böhtançı olmamışıq.
Yalançı olmamışıq
Talançı olmamışıq.
Hesabımızı bilib,
Bir az geri çəkilib
Haqqı təbərrük kimi
Tapmışıq, itirmişik.
Harda, harda olsaq da, –
Zindanlarda olsaq da
İşığa can atmışıq,
Qurmuşuq, yaratmışıq.
Dağıtmışıq sədləri.
Boğmuşuq zülümləri,
Aydınlığa çıxmışıq.
Yıxılmışıq, yıxmışıq,
Bunları saxlamışıq
Onları ötürmüşük.
Qoymuşuq, götürmüşük. –
Biz də ömür sürmüşük
Xurcunumuz, cibimiz
Dolu olub, boş olub.
Əhvalımız, kefimiz
Meyxoş olub, xoş olub
Növbənöv insanları, –
Haqqa ürəyi yanan
Mərd, bütöv insanlar,
Kişnəyən böhtanları,
Axan nahaq qanları,
Bucaqlarda bükülən
Lal, kar həqiqətləri,
Aya, ulduza hürən
Quduz, sümsək itləri,
Yaxşını da, pisi də,
Qurumu da, hisi də
Görə-görə gəlmişik.
Deməyin gözümüz kor,
Qulağımız da kardır.
Tünd rəng yoxdur
qaradan.
Görüb meyanı dardır
Vicdan çıxıb aradan, –
İnsanlığı sarsıdan
Qara saata, günə,
Qara yerə gəlmişik.
Bir addımlığımızda
Ağır günlər keçirir,
İran odlar içində.
Bağlanıb çox kitablar.
Çox suala cavablar
Qapılar arxasında, –
Dərin qatlar içində.
Şəhərlər dağıdılır,
Körpə uşaqlar ölür, –
Ürəyimiz ağrıyır,
Dara, şişə çəkilir. –
Ölən, itən insandır! –
Bizim qəlbimiz qandır.
Orda haray salmayın,
Paslı bir tüfəng ilə
Bizi nişan almayın.
İftiraya az uyun –
Havadan nəm çəkməyin.
Zəhləmizi tökməyin.
Qulağınızı qoyun
Arazın sinəsinə.
Ariflərin sözüdür,
Düşmənin yazdığını
Oxuyun tərsəsinə.
Başqası nə deyirsə
Hamısı əfsanədir.
Zora haqq qazandıran,
Zorun əlindən tutub
Yolunda şam yandıran
Yalandır, bəhanədir.
Araz pərişan axır.
Qəlbinin işığında
Bu gen dünyaya baxır.
Yaxşı, yamanı görür,
Qatılaşan zülməti,
Sökülən danı görür.
Ah çəkib, köks ötürüb
Araz şahidlik edir:
Orda kimlər satqındır,
Qılınc, qalxan götürüb
Kimlər igidlik edir?!..
Şeir.
Arazın o tayında
Ölən Mübarizindir,
İtən Mübarizindir.
Gülü yarpıza dönən,
İki yerə bölünən
Vətən Mübarizindir.
Ağıllı, qanacaqlı
Oğul idi Mübariz.
Yurd-yuvasına bağlı
Oğul idi Mübariz.
Ən qəti söz, son qərar,
Meydan Mübarizindir,
İman yerimizdir O.
Daşan səbrimizdir O.
Müasirimizdir O.
Bu şən, işıqlı həyat,
Cahan Mübarizindir.
Çox götür-qoy eləyib,
Çox tələş keçirmişdi.
Mübariz ölüm-dirim
Savaşına girmişdi.
O, yaxşı bilirdi ki,
Bu döyüş nə döyüşdü
Qoluna qüvvət gəldi,
Qeyrət oduna düşdü,
Ürəyi oldu rövşən. –
Ona, o qəhramana –
Cəsur, məğrur insana
Gün kimi aydın idi.
Girdiyi bu döyüşdən
Salamat çıxmayacaq.
Bu, heç eşidilməmiş,
Tarixdə görünməmiş,
Nadir bir döyüş idi.
Şanlı ölkəmiz üçün
Ruhi yüksəliş idi,
Pərvaz, pərvəriş idi,
Deyirəm, cürətə bax!
Hünərə, qeyrətə bax!..
O cür ağır döyüşdə
Mübariz özü idi
Komandan da, əsgər də,
Onun əzmi, hünəri
Coşdurdu könülləri, –
O gün bayram elədi
Bütün Turan elləri.
Adı bir dastan oldu
Ağızlarda, dillərdə.
Onda olan rəşadət,
Vətənpərvərlik ruhu
Darmadağın elədi
Dəhşətli bir güruhu.
Öz torpaq sevgisindən
Güc alanda Mübariz,
Şəhidlik zirvəsinə
Ucalanda Mübariz
Kimin ağlı kəsərdi,
Kim gözləyirdi bunu?!..
Tarix onda tanıdı
Kimin kim olduğunu.
Vətəndaş
ə z ə m ə t i m
Qardaş, sirdaş görmürdü,
O yan mürgüləyirdi,
Quyruq ələ vermirdi,
Bu yan baş girləyirdi.
Əl üzmüşdük dünyanın
Şaxtalı şimalından,
Qaragüruh qərbindən.
Yumruğumun zərbindən.
Yer oynadı yerindən.
Kainat sirkələndi
Ulduzlar yandı, söndü,
Toplandı, səpələndi,
Doğrandı, ləpələndi
Doğdu Ayın təzəsi.
Boş, yiyəsiz qalmadı
Zülfüqarın qəbzəsi.
...Biz kimlərdən qorunub
Kimlərə inanmışıq?
Daim, əsrlər boyu
Qan qoxulu işlərdən
Qaçıb gen dolanmışıq.
Qorxaqlıqmı etmişik?
Yuxuyamı getmişik?
Günahımız nə idi? –
Xalqımız qatil deyil
Rahat, dinc işlərdə də
Qızğın döyüşlərdə də
Adil, mərdanə idi.
Nankor, azğın, kəmfürsət
Düşmənimizin adı
Qulağına dəymişdi.
Boynumuza gəlmişdi
Boynumuzu əymişdi
Tökülən qanımızın
Bədəli, kəffarəsi.
Əsil-nəsəb, nəcabət,
Əcdad məfkurəsinin
Fırtınası, nərəsi
Vulkanı, fəvvarəsi
Balıq sevdası deyil
Dərin, dibsiz dəryada.
Min dörd yüz il sonra da
Ali bir doğmalığın
Əli əlimi sıxdı.
Kimliyin aydınlaşdı
Qüdrətim üzə çıxdı.
Günəş kimi parladı,
Dünyanın gözlərini
Yenə də qamaşdırdı.
Dostları sevindirdi,
Düşmənləri çaşdırdı.
Nə qədər bəxtiyaram!
Var idim, yenə varam!
Cansız bədənimdən də
Düşmən qorxur, çəkinir,
Əsir, titrəyir zağ-zağ.
Qasırğalar qoparan,
Yağı bağrını yaran
Vətəndaş əzəmətim,
Qamətim, qiyafətim
Əbədi yaşayacaq
Vətəndaş Mübarizin
Möhkəm-möhkəm
"bağlanmış"
Pəhlivan qollarında,
Qəhrəman qollarında.

**EPİLOQ**

Sən mənə can dedin,
can Ermənistan!
Mikayıl Müşfiq.
İstədik, istəmədik,
Budur dünyanın işi. –
Mübarizin qeybdən
Şərəfsiz erməniyə
Qısa bir sifarişi:
-A köhnə kirvəm, qağam
Çox danışmayacağam.
Bilirəm, az da olsa,
Dərin, dayaz da olsa
Bu gün burda səninlə
Ağız-ağıza verib,
Özümə rəva görüb
Etdiyim bu ixtilat
Məni buraxmayacaq
Məzarımda da rahat.
O soyuq qış axşamı
Xocalı qətliamı, –
O qan olmamalıydı.
Dədə-babadan qalma
Bizim köhnə yurdumuz
Viran olmamalıydı.
Murdarlığın bu qədər
Açıq olmamalıydı.
O, nə faciə idi?
Zülm, işgəncə idi?
Orda bir koma belə,
Ev yıxılmamalıydı.
Öz isti ocağından
Qaçqın, didərgin düşüb
El dağılmamalıydı.
O, qarda, qiyamətdə,
Qaranlıqda, zülmətdə
Körpəm donmamalıydı.
Gözlərim yaşla dolub
Belim sınmamalıydı.
Axı tabağımız bir,
Dostumuz, düşmənimiz,
Əziz qonağımız bir, –
Cani bir qardaş idik.
Biz bir-birimizin
Gözlərinin üstündə
Bir gur çatmaqaş idik
Bir çətirin altında
Nur idik, işıq idik
Bütün dünya üzünə
Bəzək, yaraşıq idik.
Dost da, yad da görürdü,
Çırağının işığı
Mənə ilham verirdi.
Hər dəfə rastlaşanda
Hörmətlə, ehtiramla,
Mənə baş endirirdin,
Məni xöş dindirirdin,
Məndən tanış-bilişə
Salam da göndərirdin
Ziyanımız nə idi? –
Baban nə itirmişdi,
Özün nə itirirdin?!
Mənim sənin yanında
Günahım bu idi ki,
Bəxtim gətirməmişdi.
Şər izimə düşmüşdü.
Bir cəllad əyləşmişdi
Hökmdarlıq taxtında.
Əlimin boş vaxtında.
O cəlladın yanında
Sözün keçdi, qudurdun.
Vicdanı yelə verdin,
Min bəhanə gətirdin
Mənə min tələ qurdun.
Çox namərdlik elədin,
Kəmfürsətlik elədin,
Məni arxadan vurdun.
Niyə fitvaya getdin? –
Mənə xəyanət etdin?..
Abır, həya bilmirsən,
Daha sənə nə deyim?
Bu üz, bu sifət ilə
Sənin kimi əclafdan
Mən nə cavab gözləyim?
Bir də mənim üzümə
Necə çıxa bilərsən?
Qardaş deyib gözümə
Necə baxa bilərsən?
Özün ağırlığında
Qızıl olsan da, yenə
Lazım deyilsən mənə.
Xatırladımmı sənə? –
Gözümün qabağında
Bütün həyatın boyu
Sağa, sola vurnuxub,
Min bir oyundan çıxıb
Dır-deşik axtarmısan
Qorxaq bir sıçan kimi,
Təhlükədən qurtarıb
Başın açılan kimi
Qurşanıb rəzalətə,
Cummusan xəyanətə.
Çıx get, boylanma bəri
Sovuşdur əsrləri
O murdar sifətini
Gözüm görməsin deyə
Başım sinəmə endi.
Bilirəm, bir də onun
Qalxmağı çox çətindi.

SON SƏHİFƏ
SƏS
21 aprel
2026-cı il

# “Boşanma zamanı, valideynlərin uşaqla ünsiyyətinə maneə hüquq pozuntusu sayılır”



***“Ali Məhkəmənin 24 dekabr 2025-ci il tarixli Plenum qərarına əsasən, bu qərar şəxsiyyət hüquqlarının müdafiəsi və onların pozulmasının qarşısının alınması məqsədini daşıyır”.***

Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Ramil Süleymanov bildirib. Onun sözlərinə görə, qərarda qeyd olunur ki, praktikada ən çox rast gəlinən problemlərdən biri uşağın bir valideynin yanında qalmasından sonra digər valideynin



uşaqla ünsiyyətinə maneələrin yaradılmasıdır: ”Bu hallar uşağın digər valideyndən uzaqlaşdırılması, onunla görüşlərin müxtəlif formalarda əngəllənməsi və ünsiyyətin məhdudlaşdırılması şəklində özünü göstərir.

Belə hallarda valideyn uşağı ilə görüşmək istəyini qarşı tərəfə mütəmadi şəkildə mesaj, zəng və ya yazılı müraciət vasitəsilə bildirməlidir. Bu müraciətlərin sənədləşdirilməsi və zənglərin qeydə alınması gələcəkdə sübut kimi əhəmiyyət daşıyır. Eyni zamanda, rəsmi qaydada məktub göndərilməsi və ya yaxın qohumların şahidliyi də məhkəmə prosesində dəlil kimi təqdim oluna bilər. Bundan başqa, uşaq yetkin düşüncəyə malikdirsə və onun psixoloji və ya əqli inkişafında ciddi məhdudiyyət yoxdursa, o da öz fikrini ifadə etməklə görüşə dair vəziyyəti açıqlaya bilər. Məhkəmə qərarı qüvvədə olsa da, onun icra olunmaması və icra məmuru tərəfindən bu barədə akt tərtib edilməsi də valideyn tərəfindən maneələrin yaradıldığını göstərə bilər. Bu kateqoriyalı işlərdə əsas qiymətləndirmə meyarları şəxsin yaşadığı mənəvi iztirab, psixoloji gərginlik və hüquqlarının pozulması ilə bağlı digər hallardır”.

***Günay Hacıyeva***

# Həcc ziyarətinə sənəd qəbulu niyə dayandırıldı?

***Həcc ziyarətinə sənəd qəbulu dayandırılıb. Bu barədə Trend-ə Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Xarici Əlaqələr şöbəsinin müdiri, Həcc elektron sistem rəhbəri Vüsal Cahangiri məlumat yayıb. Məlumata görə, 1500 yerlik kvota artıq tamamlanıb. Vüsal Cahangiri qeyd edib ki, sənəd qəbulu dayandırılsa da hələ də müraciət edənlər var: ”Təəssüf ki, yer qalmayıb və bu şəxslər gələn ilə qalır”.***

Qeyd edək ki, Həcc ziyarəti üçün ilk uçuş mayın 17-də təşkil ediləcək. Həmin zəvvar qrupunda 180 nəfər olacaq. Həcc ziyarətinin qiyməti bu il üçün 6 100 ABŞ dolları, yəni 10 388 AZN təşkil edir.

***Mətləb***




## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## ELAN

Yeni Azərbaycan Partiyası tərəfindən 2011-ci ildə Muradov Rövşən Nadir oğluna verilmiş 557551 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.

***

Yeni Azərbaycan Partiyası tərəfindən 2009 cu ildə Baxşəliyev Kamil Qəhraman oğluna verilmiş 500948 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.

***

Yeni Azərbaycan Partiyası tərəfindən 2016-cı ildə Gülbalayeva Mirvari Yasin qızına verilmiş 699551 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.

***

Yeni Azərbaycan Partiyası tərəfindən 2008-ci ildə Ələkbərov Elşad Məqsəd oğluna verilmiş 468225 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.

***

Yeni Azərbaycan Partiyası tərəfindən 2007-ci ildə Muradov Əliyeva Liliya Ramiz qızına verilmiş 407249 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.

***

Həsənov Taleh Rəhman oğlu adına verilmiş MV 04186 nömrəli ”müharibə iştirakçısı” vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**

**Tiraj: 2000**